2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 13 noyabr 2015-ci il tarixli 180 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 16 noyabr 2015-ci il

2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 33 saylı Xətai birinci seçki dairəsi üzrə namizədliyi Ümid Partiyası tərəfindən irəli sürülmüş və qeydə alınmış Cəfərov Üzeyir Eldar oğlu 13 noyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək 33 saylı Xətai birinci seçki dairəsinin dairə seçki komissiyasının 9 noyabr 2015-ci il tarixli 28/82 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini, həmin seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü Qabil Orucov həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın nəzərdə tutduğu şikayətvermə müddətində verilmişdir.

Ü.E.Cəfərov müraciətində 2, 5, 8, 9, 12, 14, 16, 18, 19, 21, 22, 28, 29, 32, 36 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrini mübahisələndirərək, bir şəxsin bir neçə dəfə səs verməsini, seçki qutusuna birdən çox bülletenin atılmasını, bir seçiciyə bir neçə seçki bülleteninin verilməsini, bəzi müşahidəçilərə normal müşahidə aparmaq imkanının yaradılmamasını, səsvermə başa çatdıqdan sonra élan olunan seçici sayı ilə seçki qutusundan çıxan seçki bülletenlərinin sayı arasında uyğunsuzluğun olmasını iddia etmişdir.

Araşdırma prosesində müraciət etmiş deputatlığa namizədlə əlaqə saxlanılmış, ona dairə seçki komissiyasına təqdim etdiyi sənədlərdən əlavə materiallar təqdim etmək, araşdırmada və iclasda iştirak etmək hüququnun olması izah edilmişdir. Şikayətçinin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, dairə seçki komissiyası tərəfindən deputatlığa namizəd Ü.E.Cəfərovun müraciəti ilə bağlı ətraflı araşdırma aparılmış, araşdırmada onun iştirakı təmin edilmiş, araşdırma ilə əlaqədar aidiyyəti şəxslərdən alınan izahatlar və digər sənədlərlə tanış olmuşdur. Müraciətdə qanun pozuntularının olduğunun iddia edildiyi 15 seçki məntəqəsi üzrə səsvermə günü müxtəlif maraqları təmsil etməklə həmin məntəqələrdə müşahidə aparmış çoxsaylı müşahidəçilər tərəfindən tərtib edilmiş aktlar və izahatlarla şikayətçinin göstərdiyi seçki məntəqələrində iddia edilən pozuntuların baş vermədiyi, səsvermənin və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində seçki qanunvericiliyinin tələblərinə riayət edildiyi, protokolların seçki məntəqəsində tərtib edildiyi və surətlərinin maraqlı seçki subyektlərinə verildiyi öz əksini tapmışdır. Araşdırma prosesində qeyd edilən seçki subyektlərindən və məntəqə seçki komissiyalarının müxtəlif siyasi qüvvələri təmsil edən komissiya üzvlərindən alınmış çoxsaylı aktlar və izahatlarla namizədin müraciətində

göstərdiyi hallar təkzib edilmişdir. Araşdırmaya cəlb edilmiş 2 saylı seçki məntəqəsində müşahidəçi olmuş A.S.Əhmədov, T.Y.Alıyeva, A.H.Sadıxova, A.E.Salmanov, Ə.H.Qasımov , 4 saylı seçki məntəqəsində müşahidəçi olmuş P.B.Cəfərov, T.Ə.Bəşirova, İ.F.Şərifov, R.Ə.Məhərrəmov, F.N.Xudiyev, 6 saylı seçki məntəqəsində müşahidə aparmış Ş.V.Əsgərov, F.H.Mörsümov, M.Ə.Yusifov, H.İ.Hüseynov, Ş.M.Qasımov, 8 saylı seçki məntəqəsində müşahidə aparmış K.A.Muxtarov, T.A.Kərimov, A.M.İsmayılova, S.V.Abbasova, M.S.Şərifov, 9 saylı seçki məntəqəsinin müşahidəçisi N.Ə.Salmanova, K.A.Kərimov, A.Q.İsmayılova, T.Q.Muxtarov, R.Y.İsmayılzadə, 12 saylı seçki məntəqəsi üzrə müşahidə aparmış Z.V.Tarverdiyev, M.İ.Qurbanov, N.S.Həşimov, İ.M.Babayev, A.A.Əlizadə, E.B.Süleymanov, P.T.Eyyubov, R.V.Həsənov, 16 saylı seçki məntəqəsində müşahidəçi olmuş Ə.M.Zeynalov, A.S.Aslanov, E.F.Rzayev, M.Y.Məmmədov, M.İ.Vəliyev, 18 saylı seçki məntəqəsində müşahidəçi olmuş A.X.Şahbazov, S.S.Abunova, D.G.Alışanov, Z.X.Şükürov, Y.T.Həmidov, 19 saylı seçki məntəqəsi üzrə müşahidəçi M.A.Aslanov, E.İ.İmanverdiyev, E.A.Hüseynova. A.Z.Bağırov, E.N.Nemətov, 20 saylı seçki məntəqəsində müşadəçi olmuş R.A.Hümbətov, C.B.Qocayev, E.N.Allahverdiyev, T.İ.Hüseynov, B.E.Bədəlov, M.O.Əliyev , 21 saylı seçki məntəqəsi üzrə müşahidəçi V.S.İbrahimov, C.K.Məcidov, O.B.Heydərov. A.Ə.Rəhimov, E.Ə. Mürsəlli, 22 saylı seçki məntəqəsi üzrə müşahidəçi V.İ.Mikayılov, C.T.Cavadova, R.F.Tahirov, A.A.Hüseynov, H.S.Həsənov, 23 saylı seçki məntəqəsində müşahidəçi olmuş A.H.Əsədova, E.G.Abdullayev, R.İ.Cavadov, O.D.İbrahimov, M.K.Quliyev və 24 saylı seçki məntəqəsində müşahidəçi olmuş V.B.Ələsgərova, S.E.Mürşüdova, E.T.Əsədova, N.İ.İbrahimova. G.F.Hacızadə, H.İ.Rzayev, E.Q.Babayeva, A.V.Qədirov, T.İ.Nəcəfov və Z.M.Rəsulovun izahatlarında səsvermə və ondan dərhal sonra baş vermiş səslərin səsvermənin nəticələrinin müəyyən edilməsi prosesinin seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq keçirildiyini, bu zaman ciddi qanun pozuntularına yol verilmədiyini, müşahidə prosesinə müdaxilə hallarının olmadığını, nə onlara, nə də digər müşahidəçilərə qarşı məntəqə seçki komissiyasının sədri və ya üzvləri tərəfindən heç bir qanunsuz təzyiqlərə yol verilmədiyini, ümumiyyətlə, seçki məntəqələrinin qanun çərçivəsində fəaliyyət göstərdiyini bildirmişlər.

Həmçinin 33 saylı Xətai birinci seçki dairəsində Ümid Partiyasının maraqlarını təmsil edən müşahidəçilər, 18 saylı seçki məntəqəsi üzrə Əliyev Orxan Zaur oğlu, 21 saylı seçki məntəqə üzrə Nurəddin İsgəndərov, 22 saylı seçki məntəqəsi üzrə İsmayıl İsmayılov, 28 saylı seçki məntəqəsi üzrə Hüseynov Rəhman Aydın oğlu səsvermə günü digər müşahidəçilərlə birlikdə müvafiq aktlar tərtib edərək səsvermə və səslərin hesablanması prosesində heç bir qanun pozuntusuna yol verilmədiyini, tərtib edilmiş səsvermənin yekunlarına dair protokolların təsdiq edilmiş surətlərinin onlara verildiyini bildirmişlər.

Hərtərəfli və obyektiv araşdırma nəticəsində dairə seçki komissiyası namizəd Ü.E.Cəfərovun şikayətinin təmin edilməməsi barədə düzgün nəticəyə gəlmişdir.

Göstərilənlərə əsasən şikayətin təmin edilməsi və dairə seçki komissiyasının şikayətlə bağlı qərarının ləğv edilməsi üçün hüquqi əsaslar müəyyən edilmədiyindən müraciət əsassız hesab edilərək təmin edilməməli, 33 saylı Xətai birinci seçki dairəsi dairə seçki komissiyasının 9 noyabr 2015-ci il tarixli 28/82 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə

seçkilərdə 33 saylı Xətai birinci seçki dairəsi üzrə namizədliyi Ümid Partiyası tərəfindən irəli sürülmüş və qeydə alınmış Cəfərov Üzeyir Eldar oğlunun 13 noyabr 2015-ci il tarixli 180 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 9 noyabr 2015-ci il tarixli 28/82 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov